**Hər il martın 16-sı Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları otuz il ərzində sədaqət, peşəkarlıq və fədakarlıq simvoluna çevriliblər. Onlar ölkə rəhbərliyinin mühafizəsini yalnız fiziki təhlükəsizlik çərçivəsində görməyib, sabitliyin və əmin-amanlığın keşiyində duran görünməz qəhrəmanlara çevriliblər. Bu xidmətin hər bir əməkdaşı Prezidentin, ali hakimiyyət orqanlarının, eyni zamanda neft və qaz kəmərlərinin, strateji obyektlərin təhlükəsizliyinin təminatçısı olub. Onların sayıqlığı sayəsində düşmənin məkrli planları iflasa uğrayıb, dövlətin damarları sayılan enerji infrastrukturu qorunub. Amma onların xidməti yalnız səngərsiz mübarizə ilə məhdudlaşmayıb. Vətən torpaqları işğal altında olanda Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçuları döyüş meydanına atıldılar, ölümün gözünə dik baxdılar. Onlar Azərbaycan əsgərinin qələbə ruhunun bir parçası oldular, qanları ilə tarix yazdılar.**

# Dövlətin sarsılmaz sipəri - soyuqqanlılıq, peşəkarlıq və vətənə sədaqət

Milli dövlətçiliyimizin keşiyində dayanan Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşları təkcə təhlükəsizlik təminatçıları deyil, həm də sədaqət və fədakarlıq rəmzidirlər. Onların peşəkarlığı, cəsarəti və vəzifə borcuna sarsılmaz bağlılığı hər zaman yüksək qiymətləndirilib. Prezident, Ali Baş Komandan İlham Əliyevin bu xidmətə göstərdiyi diqqət və qayğı da bunun parlaq sübutudur. Məhz bu dəstək sayəsində xidmətin maddi-texniki bazası durmadan gücləndirilir, əməkdaşların sosial rifahı yüksəldilir, mənzil şəraiti yaxşılaşdırılır. Hər il onların əməyinə dövlət mükafatları, orden və medallarla dəyər verilir, yubiley medalları təsis edilir. Bu, təkcə bir minnətdarlıq jesti deyil - dövlətin öz müdafiəçilərinə olan ehtiramının, onların layiqli xidmətinin təsdiqidir. Onu da qeyd edək ki, 14 mart tarixində Prezident İlham Əliyev "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında" Sərəncam imzalayıb. Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin bir sıra hərbi qulluqçuları təltif ediliblər.

Xatırladaq ki, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin təsis edilməsi tarixdən gələn zərurətdir. Belə ki, hələ 1919-cu ildə Azərbaycan Demokratik Respublikası Parlamenti fevralın 18-də keçirilmiş 15-ci iclasında Azərbaycan parlamentinin mühafizə dəstəsinin yaradılması haqqında Qanun qəbul etmişdi. Qanuna əsasən parlamentin ixtiyarında olan "Məclisi Məbusan Xassə Qoruyucu Bölüyü" yaradılmışdır. Məhz bu səbəbdən müstəqilliyimizin bərpasından sonra ulu öndər Heydər Əliyevin göstərişləri əsasında xüsusi dövlət mühafizəsi sahəsində əməli işlər görülmüşdür. Ümummilli lider Heydər Əliyev 1993-cü il avqustun 23-də Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Mühafizə İdarəsi ilə Azərbaycan Respublikasının Milli Qvardiyasının bazasında Azərbaycan Respublikasının Ali Dövlət Hakimiyyət və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsinin yaradılması haqqında Fərman imzalamışdır.

Prezident İlham Əliyevin 2020-ci il 16 mart tarixli Fərmanı ilə ölkəmizdə xüsusi mühafizə sahəsində yeni bir mərhələ başlandı. Bu fərmanla Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edildi və onun yerində üç yeni qurum yaradıldı. Onlardan biri Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, ölkəmizin iqtisadi və təhlükəsizlik sahələrindəki ən həssas obyektləri qorumaqla yanaşı, beynəlxalq terrorizmin və sui-qəsd təhlükələrinin qarşısını almaq məqsədi daşıyır. Agentlik neft və qaz boru kəmərlərini mühafizə edir, həm də mühafizə olunan şəxslərin və strateji obyektlərin təhlükəsizliyini təmin edir. Dünyada və bölgəmizdə baş verən hadisələr bir daha göstərir ki, təhlükəsizliyin təkmilləşdirilməsi, elm və texnologiyanın imkanlarından faydalanma, yüksək peşəkarlığa malik kadrların yetişdirilməsi zəruridir. Bu istiqamətdə ən böyük diqqət müharibə iştirakçılarına yönəldilib. Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi Vətən müharibəsinin qəhrəmanlarına xüsusi diqqət göstərərək onların Agentlikdə hərbi xidmətə qəbulunu təmin edib. Bu addım yalnız onların qəhrəmanlıqlarını tanımaqla kifayətlənmir, həm də gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi yaradır.

Məlumat üçün bildirək ki, 2024-cü ildə Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi əməkdaşları tərəfindən neft-qaz ixrac boru kəmərlərinin "mühafizə zonaları"nda qaydaları pozan 5377 nəfər saxlanılıb və barələrində müvafiq tədbirlər görülüb. Bundan başqa, ötən il 86 PUA-nın idxalı və istifadəsi ilə bağlı müraciətə baxılaraq, 48-nə mənfi rəy verilib. Bununla yanaşı, 37 nəfər olmaqla, son 2 ildə, ümumilikdə 85 nəfər Vətən müharibəsi iştirakçısı xidmətə qəbul edilib. Xidməti fəaliyyətində fərqləndiklərinə görə Agentliyin 360 hərbi qulluqçusu mükafatlandırılıb. 12 nəfər hərbi qulluqçu Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə orden və medallara layiq görülüb.



Bununla yanaşı, Agentliyin 7 əməkdaşı Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə Tbilisi şəhərində keçirilən "Eternity-2024" kompüter dəstəkli komanda-qərargah təliminin müxtəlif mərhələlərinə qatılıb. Jandarma Baş Komandanlığının aparıcı tədris müəssisələrində müxtəlif kurslarda və təlimlərdə iştirak etmək üçün 76 hərbi qulluqçu Türkiyəyə ezam olunub.

Bu gün də ictimai-siyasi sabitliyin keşiyində məhz onlar kimi mərd əsgər və zabitlərimiz dayanır. Terror-təxribat cəhdlərinin qarşısının alınmasında, ölkənin təhlükəsizliyinin təminində onların fədakarlığı əvəzsizdir. Hər bir əməliyyatda soyuqqanlılıq, peşəkarlıq və vətənə sədaqət nümayiş etdirən əsgər və zabitlər dövlətin görünməz sipəri, sarsılmaz qalxanıdır.

**Nurlan ABDALOV,**
**"Respublika".**